*YAPONIYANIN AZƏRBAYCANDAKI SƏFIRLIYI*

Hyatt Tower 3, 6-cı mərtəbə
Izmir küç. 1033, Bakı

1 iyul, 2009-cu il

# *Mətbuat üçün Məlumat*

***Yaponiya Hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində həyata keçirilmiş İsmayıllının İvanovka kəndində kənd xəstəxanasının qadın məsləhətxanası şöbəsinin təmirii layihəsinin başa çatması münasibəti ilə açılış mərasiminin keçirilməsi***

8 iyul 2009-cu il tarixdə saat 10:00-da Yaponiyanın "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində həyata keçirilmiş İsmayıllının İvanovka kəndində xəstəxananın qadın məsləhətxanası şöbəsinin binasının təmiri layihəsinin başa çatması münasibəti ilə açılış mərasimi keçiriləcəkdir. Mərasimdə Yaponiyanın Azərbaycan Respublikasındakı Səlahiyyətli və Fövqəladə Səfiri cənab Masamitsu Oki, İsamyıllı rayon İcra Hakimiyyəti Başçısı cənab Nizami Ələkbərov və müvafiq təşkilatların nümayəndələri iştirak edəcəklər.

Sözügedən layihə üzrə qrant müqavilə Yaponiya Səfirliyi və "Qadın Dünyası" Qeyri Hökumət Təşkilatı arasında 17 dekabr 2009-cu ildə imzalanmışdır. Layihənin əsas məqsədi İsamyıllının İvanovka kəndində kənd xəstəxanasında tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq şəxslərin sayı 4,500 nəfərdir. Layihənin ümumi dəyəri isə **82,440 ABŞ dollarıdır**.

Yaponiya Hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardım Proqramı" 2000-ci ildən Azərbaycan Respublikasında həyata keçirilir. Bu qrant proqramı Azərbaycan xalqının yaşayış standartlarının yaxşılaşdırılmasına yönəlmiş və bələdiyyələr, tibbi müəssisələr, təhsil müəssisələri və QHT-lər tərəfindən həyata keçirilən nisbətən kiçik miqyaslı layihələrə ayrılır. Belə layihələr səhiyyə, tibb, ibtidai və orta təhsil, sosial müdafiə, ətraf mühit, yoxsulluğun azaldılması və gəlirlərin artırılması sahəsində həyata keçirilə bilər. İndiyə kimi bu proqram çərçivəsində Azərbaycan Respublikasında ümumi məbləği **8, 070, 000** ABŞ dolları olan **115** layihə həyata keçirilmişdir.

Yaponiyanın Azərbaycana ayırdığı Rəsmi İnkişaf Yardımı iqtisadi infrastrukturun yaxşılaşdırılması, kənd təsərrüfatı, sosial sahə, mədəniyyət və insan resurslarının inkişafı kimi geniş sahələri əhatə etməklə ümumi məbləği **1 milyard ABŞ dollarından** çox təşkil etmişdir.

***Mətbuat Nümayəndələri açılış mərasimində iştirak etməyə dəvət olunur. Əlavə məlumat üçün Eri Momiyama (ancaq rus və ingilis dillərində) və Leyla Hacızadə ilə aşağıdakı nömrələr vasitəsilə əlaqə saxlaya bilərsiniz:***

**490 78 18/490 78 19; Fax: 490 78 20**